Mənəvi xəzinəmizin təəssübkeşi və fədaisi



Ömür yaşantılardır, yaşananların ardarda düzüldüyü, bəzən ürəkağrıdıcı, bəzən onu dağa döndərən xatirələrin cəmləşdiyi bir məkandır. Ömür bir qaladır, bir daşını söksən üzüaşağı tökülüb gedər. Bəzən zirvəsinə çata bildiyimiz, bəzən o zirvəni aşmağa gücümüzün yetmədiyi bir dağdır, ömür. Nə vaxt başlayacağı, harada, necə başa çatacağı da bəlli olmaz, çünki bu, qədərdir, qismətdir, elə onu necə yaşamağın özü də... Ona bəzək, naxış vurmaq, bacarıqlı rəssam tək rənglərin sehrli dünyasından boylanmaq, onu rəngarəng etmək, gözəl bir bəstəçi kimi onu yeknəsəklikdən çıxarmaq isə bizə düşər. Bu işdə seçdiyimiz peşə, sənət də köməyimizə çatar. Bax, elə bu məqamda hamının bildiyi bir deyimi xatırlatmaq lap yerinə düşər. Deyirlər, pis sənət yoxdur, pis sənətkar olur...

"Mən hər kitaba canlı kimi yanaşıram, onu əlimə götürəndə sığal çəkirəm, deyirəm, sən mənim tələbələrim üçün lazımsan, nə yaxşı ki, yazılmısan, baxım, görüm səni bioloqlar, yoxsa geoloqlar oxuyacaq... Nə olsun ki, mənimlə danışmır, dili yoxdur, əsas odur ki, mən onunla danışıram, onu oxuyuram, mənə cavab verə bilir. Ömrüm boyunca belə yanaşmışam kitablara.

Nə bilim, elə bilmişəm, ən yaxşı iş yeri Bakı Dövlət Universitetidir. Məktəb partasından birbaşa bura gəlmişəm, burada işə düzəlmişəm, zarafat deyil, düz 60 ildir. Bax elə buna görə BDU mənim üçün ən əziz, doğma yer olub. O qədər iş təklifi almışam ki"...

Bu sözlərin müəllifi Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, "Tərəqqi" medallı, adi kitabxanaçıdan direktorluğacan pillə-pillə ucalan və bu gün yaşının müdriklik çağını yaşayan Sara İbrahimovadır. Sənətini sevən, sevdirən, ömrünə naxış vurmağı bacaran Sara xanım...

O, ailədə altı uşaqdan biri, üç bacının ən kiçiyi idi. 1940-cı il yanvarın 6-da Lənkəranda dünyaya göz açmış, digər ailələr kimi müharibənin çətinliklərini yaşayan bir ailədə böyümüşdü. Atası Hökmulla bu qanlı müharibədən əlil kimi dönmüşdü, lakin müharibədən əvvəl olduğu kimi işlədiyi tikinti sahəsində işləyir, nə qədər çətin olsa da övladlarının normal yaşamasına, təhsil almasına çalışırdı. Son dərəcə ciddi olan bu insanın öz ailə qanunları vardı və heç kəs bu qanunlardan kənara çıxa bilməzdi. Xüsusən də ailədə böyüyən qızların geyimlərinə, hərəkətlərinə ciddi nəzarət edilirdi. Bütün bunlarla yanaşı, təhsil birinci yerdə dayanırdı. Evdar qadın olan Leyla xanım hərdən ürəyi yumşaqlıq edər, uşaqlara bir qədər sərbəstlik verər və bəzən bunun üstündə məzəmmət olunardı. Hərdən mülayim xasiyyətli Leyla ana da haqlı çıxar, yanan odun üzərinə su töküb, onun ya alovunu azaldar, ya da söndürərdi. Bu mehriban ailənin sözü də, söhbəti də, yaxşısı da, pisi də elə ailə çərçivəsi daxilində qalar, onu daha da möhkəmləndirərdi.

Uşaqlar Lənkəran şəhər 4 saylı orta məktəbdə təhsil alırdılar. Sara rus bölməsində oxuyurdu. Mütaliəni çox sevirdi, ən çox sevdiyi fənn isə riyaziyyat fənni idi. Özündən böyük bacı və qardaşları kimi o da oxumaq, ali təhsil almaq istəyirdi. 1960-cı il idi, dərs ilinin sonuna az qalırdı. Sonuncu sinifdə oxuyan Sara artıq tələbəlik illərinin xəyalı ilə yaşayır, həm buraxılış, həm də qəbul imtahanına ciddi hazırlaşırdı. Bir gün evlərinə qonaq gəlir, həmyerliləri, o zaman Bakıda yaşayan Sovet İttifaqı Qəhrəmanı İsrafil İbrahimov və bir neçə nəfər. Bu, adi gəliş deyildi, sən demə, İsrafil müəllim Saranı oğlu Oktaya almaq üçün elçi gəlibmiş...

Deyirlər qadının zirvəyə gedən yolu kişidən keçir. Qadın bütün həyatını məhz onunla nizamlayır. Bu zirvəni fəth etmək, ona çatmaq qadın üçün həmişə çətin olur, nədənsə. Bəlkə buna görə də tarixdə filosof qadınlar, qadın rəssamlar, şairlər barmaqla sayılacaq qədərdir. Ancaq zirvəyə qalxan hər bir kişinin arxasında, bəlkə də bərabərində dayanan da qadındır. Bu mənada o, elə həm də o zirvənin bərabərində kişi ilə eyni məsafədədir. Bir də qadın üçün əsl zirvə onun qoruyub saxlaya bildiyi ailəsidir. Ailə məsuliyyət olduğu qədər də, ağır bir yükdür. Bu yükü yalnız sədaqətli insanlar daşıya bilirlər çiyinlərində. Sara xanım öz zərif çiyinlərini bu yükün altına verəndə orta məktəbi yenicə bitirmiş, orta məktəbin son zəngi çalınar-çalınmaz, "Vağzalı"nın həzin sədaları altında ər evinə köçmüşdü. Sara xanım deyir:

"4 saylı orta məktəbin uğurları çox idi. O zaman direktorumuz rejissor Cəmil Quliyevin babası Heybət müəllim idi. Heybət müəllimin həyat yoldaşı Sona xanım isə Şəhər Sovetinin sədri işləyirdi. Mən oxumaq istəyirdim, ailə həyatı qurmaq barədə düşünmürdüm. 1957-ci ildə atam vəfat etdikdən sonra ailənin bütün yükü, məsuliyyəti anamın üzərinə düşmüşdü. Mən onun qəlbini qıra bilmədim. Onu da deyim ki, anam elçilərin qarşısında bir şərt qoşmuş: "Qızımı oxudacaqsınız, bu həm də atasının arzusudur" - demişdir. Elə də oldu. Qayınatam tanınmış adam idi, biz Bakıda Qəhrəmanlar Evində yaşayırdıq. Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovla qonşu idik. Onu qonşu kimi də, alim kimi də çox yaxşı xatırlayıram. Ziya müəllim Astarada doğulmuşdu, o vaxt atası Astara Gömrük İdarəsinin rəisi idi. Sonra Bakıya köçüblər, əslən Bibiheybətdəndir, həyat yoldaşı Tahirə xanım qarabağlıdır. Tahirə xanım da, Ziya müəllim də Moskvada aspiranturada sonralar SSRİ Ali Sovetinin sədri olmuş Nikolay Podqornı ilə birgə oxumuş, elə orada tanış olub evlənmişdilər. Onu da deyim ki, mərhum Aida xanım İmanquliyeva da onların tələbə yoldaşları olub. Ziya müəllim çox gözəl insan idi, heç kəsə "yox" deməzdi. Qayınatam rəhmətə gedəndə bizim ailəyə də kömək etmişdi.

1960-cı ildə Sara İbrahimova qəbul imtahanlarını uğurla verib Azərbaycan Pedaqoji İnstitutunun mexanika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olur, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin kitabxanasında işə düzəlir: "Mənim kitaba hədsiz marağım vardı, bu səbəbdən də iş üçün kitabxanaya müraciət etdim. O zaman ADU keçmiş Kommunist, indiki İstiqlaliyyət küçəsində yerləşirdi. Kadrlar şöbəsində dedilər ki, mütləq rektorun qəbuluna getməlisiniz. O vaxt rektorumuz rəhmətlik Şəfaət Mehdiyev idi. Qəbul otağında Fatma adında bir xanım oturmuşdu, o məni qəbula yazdı, sonra çağırdılar, Şəfaət müəllim sənədlərimə qol çəkdi və məni kitabxanaya işə götürdülər. O vaxt rusdilli mütəxəssislərə tələb çox idi, mən də orta məktəbin rus bölməsində əla qiymətlərlə oxumuşdum.

Sonra müəyyən səbəblər üzündən ali təhsilimi yarıda qoymalı oldum, çox məyus olmuşdum, ancaq bu uzun sürmədi. Mən işə tez alışmışdım. Şöbə müdirimiz Nigar xanımın sayəsində bu peşəyə çox bağlanmışdım. Sevdiyim bu peşə üzrə təhsil almaq arzusunda olduğumu deyəndə ailəm də mənə dəstək verdi. Beləcə, işlədiyim ali məktəbin tələbəsi oldum. Mən təhsil aldığım illərdə kitabxanaçılıq fakültəsi yox idi, şərqşünaslıq fakültəsinin tərkibində bölmə kimi fəaliyyət göstərirdi. Diplomuma da şərqşünaslıq fakültəsinin kitabxanaçılıq və biblioqrafiya bölməsi qeyd olunub. O fakültə 1964-cü ildə yarandı və biz Abuzər Xələfovun tələbələri olduq. Onu da deyim ki, bu fakültənin yaranmasında onun xidmətləri böyükdür. Bu gün respublikada fəaliyyət göstərən böyük kitabxanaçı ordusunun hər bir üzvü özünü haqlı olaraq Abuzər müəllimin yetirməsi sayır. Elə mən də..."

1967-ci ildə təhsilini başa vuran Sara İbrahimova şöbə müdiri təyin olunur, 1984-cü ildə isə kitabxanaya direktor vəzifəsinə irəli çəkilir. Zənginliyinə görə ali məktəb kitabxanaları arasında birinci, ölkə üzrə Azərbaycan Milli Kitabxanasından sonra ikinci yerdə olan Bakı Dövlət Unversitetinin Elmi Kitabxanası da bu ali təhsil ocağı ilə birgə yaradılıb, yəni 1919-cu ildən fəaliyyətdədir. Universitetin ilk rektoru Vasili İvanoviç Razumovskinin təşəbbüsü ilə alimlər Rusiyaya, Türkiyəyə göndərilir, qızıl pula kitablar alınıb gətirilir. Zalda cəmi 250 kitabla fəaliyyətə başlayan kitabxananın fondu qısa zamanda zənginləşir. Burada nadir kitablar toplanır. 1551-ci ildə nəşr olunan və Troya müharibəsi zamanı Yunanıstanda baş verən hadisələrdən bəhs edən kitab, 1595-ci ildə Almaniyanın Vena şəhərində alman dilində çap olunan "Türklər haqqında on nəsihət" adlı kitab da bu gün kitabxananın "Nadir və qiymətli kitablar" şöbəsində mühafizə edilir. Ümumiyyətlə, bu fonddakı kitabların sayı 11 mindən artıqdır. İndi kitabxananın 3 milyon nüsxə ədəbiyyatı var. Unversitetin üç korpusunda 14 şöbəsi, 15 oxu zalı fəaliyyət göstərir. İldə 15-16 min yeni ədəbiyyat alınır, 1 milyon yarımdan çox kitab dövriyyə edir. 18 min oxucu kartı var. Hər il 51 min 760 manat dəyərində dünyanın ən informativ jurnalları alınıb oxucuların ixtiyarına verilir. Ümumi fondda olan kitabların demək olar ki, 80 faizi elektron kataloqa salınıb. Bu proses İRBİS-64 proqramı əsasında həyata keçirilir. Bu da oxuculara xidmətin səviyyəsini artırmağa imkan verir. Elmi Kitabxana beynəlxalq EBSCO elektron nəşriyyatına abunə yazılmışdır. Tammətnli elektron kitabxana yaradılması istiqamətində işlər davam edir. Moskva Dövlət Universiteti də daxil olmaqla 51 müəssisə ilə kitab mübadiləsi edilir.

Bakı Dövlət Universiteti Elmi Kitabxanasının qorunub saxlanılması, burada mütərəqqi metodların, yeni texnologiyaların tətbiq edilməsi, xidmətin səviyyəsinin yüksəldilməsində və s. Sara xanımın bir rəhbər, təşkilatçı kimi rolu böyükdür. O, respublika və beynəlxalq əhəmiyyətli kionfrans, simpozium və seminarlarda iştirak edərkən əxz etdiyi nəzəri və əməli yeniliklərin həm BDU-nun Elmi Kitabxanasında, həm də respublika ali təhsil müəssisələri kitabxanalarında tətbiq olunmasına çalışır, bununla da elm və təhsilin məqsədyönlü inkişafına töhfələrini verir. 18 qrantın, iki biblioqrafik göstəricinin, bir metodiki vəsaitin, 40-a yaxın elmi, elmi-publisistik və publisistik məqalənin müəllifi olan Sara xanım Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun yaradıcısı, Respublika Mərkəzi Metodiki Kitabxana Komissiyasının, Azərbaycanın Kitabxana İşinin İnkişafı Assosiasiyasının, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin və Avrasiya Kitabxanaşünaslıq Assambleyasının üzvüdür.

Sara xanımın həyatında unudulmaz anlar çox olub. Ulu öndər Heydər Əliyevlə görüşlərini də məmnunluqla xatırlayır, o anları əbədiləşdirən fotoşəkilləri isə göz bəbəyi kimi qoruyub saxlayır: "Yaxşı yadımdadır, 1998-ci ildə Məkkəyə göndərilən ziyalılar arasında mən də vardım. Ulu öndərimiz bizi kabinetində qəbul etdi, xeyir-dua verdi. Mən hələ də o anların həyəcanını, sevincini yaşayıram. Ölkə başçısı İlham Əliyevlə də görüşüm olub... Bunlar həyatımın unudulmaz, ömrümün mənalı anlarıdır" - deyir Sara xanım.

Nə yaxşı ki, xatirələr varmış, onsuz mənasız olarmış ömür, insana güc, qüvvət, yaşamaq istəyi verən də bu xatirələrdir. İndi Sara xanım geridə qoyduğu illəri, ünsiyyətdə olduğu, xidmətində durduğu insanları nostalji hisslərlə tez-tez yada salır: "Bu dünya bir pəncərədir, hər gələn baxıb gedər. Arxada qoyub gəldiyim bu qos-qocaman ömür payımda kimləri tanıdım: Abbas Zamanov, Nəsir İmanquliyev, Mir Cəlal Paşayev, Fərhad Zeynalov, Vəkil Məmmədov, Teymur Əhmədov... Hər birinin xidmətində dayanmışam. Bəzən saatlarla kitabları müzakirə edər, fikirlərimizi bölüşərdik. Kitabxanamızın ən fəxri oxucuları idilər..."

Bəli, doğrudan da qocaman bir ömür yaşayıb Sara xanım, kitablar arasında, hər kitabı canlı bir insan kimi sevib, kəsif kitabxana qoxusunu içinə çəkməkdən yorulmayıb, adını 100 yaşlı Bakı Dövlət Universitetinin tarixinə yaza bilib. O, üzərinə düşən bütün missiyanı layiqincə yerinə yetirib. Ömür-gün yoldaşı Oktay müəllimlə birgə iki övlad böyüdüblər. İndi nəticə sevinci yaşayan Sara xanım Tanrının ona yazdığı ömür payını da məhz bu yaşadıqları, uğurları ilə mənalı və dəyərli edib, ona bəzək, naxış vurub. İndi 100 illiyini qeyd etdikləri Bakı Dövlət Universiteti Elmi Kitabxanasında saysız-hesabsız ardıcıllarını yetişdirən Sara xanım peşəsini sevib, sevdirə bildi. Həyat və fəaliyyəti örnək olan bu cür insanlardan isə öyrənməyə dəyər!..

Zümrüd QURBANQIZI,
"Respublika".

Redaksiyadan:

Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 2019-cu il tarixli sərəncamına əsasən Sara xanım İbrahimova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir...

Yüksək dövlət mükafatı münasibətilə Sara xanımı təbrik edirik!..